# Carçı

2011-ci ildən

№ 73

Xüsusi buraxılış/ 2025



Carçı
"ATƏŞGAH" SIĞORTA QRUPUNUN RÜBLÜK JURNALI

№ 73
Xüsusi buraxılış/ 2025

# MÜNDƏRİCAT



Uğurla davam edən yol, yenilənən məkan!
səh. 03

AtəşgahSığorta

Siz də jurnalımızın müəllifi və ya aktiv üzvü ola bilərsiniz. Özünüzü yeni sahədə sınayın!

Biz yeni fikir və təkliflərə açığıq.

İstək və təkliflərinizi elektron ünvanımıza göndərin:

**pr@ateshgah.com**

Hazırki nüsxədə əməyi keçənlər:

L. Babayeva
Ş.Həsənsoy
T. Cəfərova

Uğurla davam edən yol, yenilənən məkan!
səh. 03

Birliklə yazılan 29 il
səh. 04

Yeni il hədiyyələrimiz
səh. 05

Bir-birimizi tanıyaq
səh. 06

2026-cı il bizlərə nə vədd edir?
səh. 07

# Uğurla davam edən yol, yenilənən məkan!

18 dekabr tarixində şirkətimizin yaranmasının 29-cu ildönümü təntənəli şəkildə qeyd olundu! Bu əlamətdar gün eyni zamanda şirkət tarixində daha bir mühüm hadisə ilə yadda qaldı. Belə ki, Əmlak sığortası üzrə zərərlərin tənzimlənməsi departamentinin yeni, daha geniş və müasir standartlara cavab verən ofisinin rəsmi açılışı da məhz bu tarixdə baş tutdu.
Yeni ofis əməkdaşlar üçün daha rahat və funksional iş mühiti yaratmaqla yanaşı, xidmət keyfiyyətinin daha da yüksəldilməsinə xidmət edəcək. Bu addım komandanın iş şəraitinin yaxşılaşdırılması ilə yanaşı, zərərlərin tənzimlənməsi proseslərinin daha effektiv və operativ şəkildə həyata keçirilməsinə imkan verəcək.
Açılış mərasimində şirkət rəhbərləri çıxış edərək əməkdaşları hər iki əlamətdar hadisə - şirkətin 29 illik fəaliyyəti və yeni ofisin istifadəyə verilməsi münasibətilə təbrik etdilər.















# Birliklə yazılan 29 il

18 dekabr 2025-ci il- beləcə, irəlilədiyimiz bu uzun yolda daha bir ili geridə qoyduq! Şirkət binasında fərqli bir ab-hava, xüsusi sevinc və fərəh hiss olunurdu. Zərif şəkildə bəzədilmiş məkan, zövqlə geyinmiş əməkdaşlar, bir-biri ilə mehriban söhbətləşən dostlar - hər biri  bu günün özəl olduğunu bir daha göstərirdi. Hər kəs böyük səbirsizliklə tədbirin başlanacağı anı gözləyirdi.Nəhayət, tədbirin rəsmi hissəsinin açılışı elan olundu. Rəhbərliyin çıxışları yalnız bir tədbirin deyil, 29 illik bir yolun hekayəsinə çevrildi - zəhmət, uğur, iradə və inkişafla yazılmış bir hekayə. Ardınca uzun illərdir şirkətin inkişafına töhfə verən, 5, 10, 20 və 25 illik əməyə sahib əməkdaşlar səhnəyə dəvət olundu. Onlara təqdim edilən dəyərli hədiyyələr sadəcə bir təşəkkür deyil, həm də illərin əməyi qarşısında hörmətin simvolu idi.

Tədbirin ən xoş anlarından biri isə hər kəsin ad günü tortu ətrafında bir araya gəlməsi oldu. “Atəşgah” ailəsi bir daha birlik və həmrəylik nümayiş etdirdi. Rəsmi hissədən sonra mərtəbələr üzrə əyləncə başlandı. Rəngarəng musiqilər və müxtəlif interaktiv şoular tədbirə daha da canlılıq qatdı. Gün boyu davam edən şənlik əməkdaşlara unudulmaz anlar yaşatdı.















Yeni yaşımız yeni ümidlər, yeni hədəflər və daha böyük zirvələr deməkdir. İnanırıq ki, qarşıdakı illər hər birimizə doğma və əziz məkana çevrilmiş şirkətimiz  üçün daha böyük uğurlar, davamlı inkişaf və yeni nailiyyətlərlə yadda qalacaq!

# Yeni il hədiyyələrimiz

29 illik etibar və güvən uzunmüddətli əməyin bəhrəsidir. 1996-cı ildən etibarən Azərbaycan sığorta bazarının təməlini qoyan aparıcı sığorta şirkətləri sırasında yer alan "Atəşgah" Sığorta Şirkəti bu illər ərzində müştəriləri və tərəfdaşları arasında dərin hörmət və etimad qazanmışdır. Bu etibarın formalaşması bizim üçün hər zaman güclü motivasiya mənbəyi olub. Biz də öz növbəmizdə əməkdaşlıq etdiyimiz qurumlara diqqət və qayğı göstərməyi əsas dəyərlərimizdən biri hesab edirik. Xüsusi günlər və bayramlar münasibətilə tərəfdaşlarımızı sevindirməyi, onlara dəyər verdiyimizi hiss etdirməyi seçirik.

Bu il üçün hazırlanmış standart hədiyyələrimiz qırmızı və narıncı rəngli xüsusi qutuların içərisində təqdim olunan, "Atəşgah" loqolu dəstlərdən ibarət oldu. Bundan əlavə, VİP hədiyyə olaraq xüsusi zövqlə hazırlanmış, əl işi olan eksklüziv çərçivələr tərəfdaşlarımıza təqdim edildi. Müştərilərdən ünvanlanan xoş sözlər, eləcə də sosial şəbəkələrdə paylaşılan təşəkkür mesajları və hekayələri gördüyümüz işlərin dəyərini bir daha təsdiqlədi və bizi haqlı olaraq qürurlandırdı. Bu etibar və rəğbət "Atəşgah" Sığorta Şirkətinin gələcək fəaliyyətində əsas yol göstəricisi olaraq qalacaq.





# Bir-birimizi tanıyaq

*Müsahibə*

## Əliyev Azər Allahverdi oğlu

*“Atəşgah” Sığorta Şirkəti ASC-nin Direktorlar Şurasının sədri*



1 **Özünüzü üç sözlə təsvir etmək imkanınız olsa, bu sözlər hansılar olar?**
Daim effektiv həll yollarının axtarışı, sistemin mövcudluğu ədalətsizliklə mübarizənin və dürüst insan olmağın ən yaxşı yoludur. Bu isə Allaha iman və xidmətin parlaq sübutudur.

2 **“Atəşgah”brendi insanların yaddaşında daha çox nəyin simvolu olmalıdır?**
Yüksək keyfiyyətli xidmət və ödənişlərin qanuna tam və ciddi şəkildə uyğun olaraq həyata keçirilməsi.

3 **Bəzən “ən böyük risk - risk almamaqdır” deyirlər. Sığorta sektorunda bu fikrə münasibətiniz necədir?**
Ümumiyyətlə, risklərin idarə olunmasının özü ya müəyyən akademik biliklər, ya da həyat təcrübəsi tələb edir. Əlbəttə ki, risklərin idarə edilməsi barədə anlayışı olan insanlara sığorta məhsullarını satmaq xeyli asandır. Həm də sığorta hadisəsi baş verdikdə müvafiq xidməti təcrübədə göstərə bilmirlərsə, bu və ya digər sığorta şirkətinin nə dərəcədə yaxşı olduğunu necə anlamaq olar? Buna görə də mən sığorta hadisələrinin baş verməsinin tərəfdarıyam, lakin bu hadisələr düzgün şəkildə proqnozlaşdırılmalıdır.

4 **“Atəşgah”dan ayrı olduğunuz müddətdə onun fəaliyyətini kənardan necə qiymətləndirirdiniz?**
Fikrim yəqin ki, subyektiv kimi qiymətləndiriləcək, lakin biz “Atəşgah”SQ-nin fəaliyyətinə nəzarət orqanının və orada çalışan əməkdaşların baxış bucağından verilən qiymətə nəzər sala bilərik. Əminliklə deyə bilərəm ki, üzərində işlənilməsi və təkmilləşdirilməsi lazım olan çox məqam mövcuddur.

5 **“Geri dönüş” sizin üçün daha çox yeni başlanğıc idi, yoxsa davam edən yolun başqa mərhələsi?**
Böyük ehtimalla ikincisidir. İnanıram ki, həyatımızda baş verən hər nə varsa - planlı və ya plandan kənar, hamısı Uca Yaradanın bizə yazdığı həyat yolunun davamıdır.

6 **Şirkətin daha da güclənməsi üçün hansı sahələrdə yenilik və dəyişikliyə ehtiyac görürsünüz?**
Kadrlarla iş, zərərlərin tənzimlənməsi və əlbəttə ki, İT ilə avtomatlaşdırma sahəsində genişmiqyaslı təşəbbüslər.

7 **Sizin üçün işdə motivasiyanın mənbəyi daha çox nəticələrdir, yoxsa prosesin özü?**
Baş verən müsbət dəyişiklikləri müşahidə etmək imkanı. Eyni zamanda, şirkətə adi əməkdaş kimi daxil olan insanların zamanla inkişaf edərək rəhbər vəzifələrə yüksəlməsini görmək - bu yüksəlişin qohumluq və ya tanışlıq sayəsində deyil, yalnız onların şəxsi qabiliyyətləri və əldə etdikləri nəticələr əsasında reallaşması.

8 **Bu günə qədər qəbul etdiyiniz hansı qərarla xüsusilə qürur duyursunuz?**
İş gününü qısaltdığım zaman. (gülür)

9 **Bir lider kimi əməkdaşlara hansı dəyəri və ya çağırışı çatdırmaq istərdiniz?**
Müxtəlif həyat şəraitinə baxmayaraq dürüst qalmaq, məqsədinə sadiq olmaq, daim özünü inkişaf etdirmək, yeni biliklər əldə etmək və dəyişikliklərdən qorxmamaq.

10 **Yeni ilin gəlişi ilə bağlı şirkət adından səsləndirmək istədiyiniz təbrik və arzular hansılardır?**
İş gündəlik həyatımızın çox böyük bir hissəsini tutur. Arzu edirəm ki, əməkdaşlar iş, ailə və şəxsi inkişaf arasında tarazlıq tapa bilsinlər. Həmçinin ümid edirəm ki, iş zamanı qarşılaşdıqları stress idarə oluna bilsin və şəxsiyyətin inkişafına xidmət etsin, əksinə onu məhv etməsin. Yeni ilinizi təbrik edirəm!

# 2026-cı il bizlərə nə vədd edir?



Şərq təqviminə əsasən 2026-cı il At ilidir. Lakin bu, adi At ili deyil – bu il “Alovlu At ili” kimi xarakterizə olunur. Çin təqvimində At ili ən enerjili, hərəkətli və dəyişikliklərlə zəngin dövrlərdən biri hesab edilir. Od ünsürü ilə birləşən At simvolu isə bu enerjini daha da gücləndirərək ili cəsarət, dinamika və yenilənmə ili kimi ön plana çıxarır.
At ili insanları dəyişikliklərə açıq olmağa, risk almağa və uzun müddət təxirə salınmış planları həyata keçirməyə təşviq edir. Azadlıq, sərbəstlik və irəliləmə At simvolunun əsas xüsusiyyətləridir. Məhz bu səbəbdən “Alovlu At ili”nin enerjisi hər kəsə eyni təsir göstərmir: bəzi bürclər üçün bu dövr uğur və yüksəliş vəd etdiyi halda, digərləri üçün daha diqqətli və balanslı davranmaq zərurəti yaradır.
At ili də digər illər kimi  on iki ildən bir təkrarlanır. Keçmiş At illərinə 1942, 1954, 1966, 1978, 1990, 2002 və 2014-cü illər daxildir. Növbəti At ili isə 2026-cı ildə başlayacaq. Qeyd etmək lazımdır ki, Çin təqviminə görə il yanvarın 1-də deyil, fevral ayında başlayır. 2026-cı ildə At ili od ünsürü ilə birləşdiyi üçün “Alovlu At” adlandırılır və bu, çox güclü, təsirli enerji deməkdir.
At ili güclü iradə, cəsarət və dəyişiklik ehtiyacını ön plana çıxarır. Bu dövr insanları passivlikdən uzaqlaşdıraraq hərəkətə keçməyə sövq edir. Uzun müddət planlaşdırılan, lakin reallaşdırılmayan ideyalar üçün At ili xüsusilə əlverişli sayılır. Səyahət, yeni layihələr, iş və şəxsi həyatda yenilənmə bu ilin əsas mövzularındandır. 2026-cı il üçün uğurlu rənglər qırmızı, sarı və bənövşəyi, uğurlu rəqəmlər isə 2, 3 və 7 sayılır.
“Alovlu At ili” güclü və hərəkətli enerjisi ilə həm böyük fürsətlər, həm də vacib dərslər gətirən bir dövrdür. 2026-cı il insanları cəsarətli olmağa, məqsədlərini dəqiqləşdirməyə və öz arzularının arxasınca inamla addımlamağa çağırır. Bu güclü enerjidən düzgün faydalanmaq üçün balansı qorumaq, tələskənlikdən uzaq durmaq və düşünülmüş addımlar atmaq vacibdir. Müdriklik və iradə ilə yanaşı hərəkət edənlər üçün “Alovlu At ili” uğur və inkişaf ili ola bilər.

Bu ideyadan ilhamlanaraq, şirkət olaraq 2026-cı il “Alovlu At ili”nin ruhunu təqvim və hədiyyəlik çantalarımızın dizaynında canlandırdıq.
Güc, azadlıq və irəliləyiş rəmzi olan At obrazını milli dəyərlərlə birləşdirərək seçimimizi Qarabağ atları üzərində saxladıq. Təqvimin hər səhifəsi Qarabağ atlarının fərqli vizual təqdimatı ilə yanaşı, bu nadir cinsə dair qısa və məlumatlandırıcı mətnlərlə zənginləşdirilmişdir. Məqsədimiz yalnız estetik baxımdan diqqətçəkən məhsul yaratmaq deyil, həm də Qarabağ atlarının tarixi, gücü və mədəni əhəmiyyəti haqqında maarifləndirici məzmun təqdim etməkdir. Beləliklə, “Alovlu At ili”nin dinamik enerjisini, Qarabağ atlarının qüdrəti və milli ruhu ilə bir araya gətirərək, 2026-cı ili simvolizə edən mənalı və yaddaqalan bir konsepsiya ərsəyə gətirdik.











AtəşgahSığorta

*Yeni il – təqvimdə sadəcə bir səhifə deyil, qəlbimizdə yenilənən ümidlərin və hədəflərin təcəssümüdür.*
*Qoy bu il ümidləriniz gerçək, addımlarınız inamlı, qəlbiniz isə hər zaman sevgi ilə dolu olsun.*
*Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirik!*



# "Atəşgah" Sığorta Qrupunun Himni

Biz, inama doğru,
Nurlu sabaha yol gedirik.
Və işığa doğru,
Xoş gələcəyə biz baxırıq.
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə, Arxayın yaşa!

Biz, inama doğru
Nurlu sabaha yol gedirik
Və işığa doğru
Xoş gələcəyə biz baxırıq
Səadəti, məhəbbəti… səninlə bölüşdük!

Nəqarət:
Ürəyimiz bir atəş,
Birgə döyünür ürəyinlə
Qəlbimiz bir səs,
Birgə oxuyur qəlbinlə
Nəbzimiz, könlümüz, arzularımız səninlə
Gülümsə həmişə,
Arxayın yaşa!